Yazan
07.10.13 21:55 -

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi 2013-cü il oktyabrın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Zülfüqar Cəfərovun seçki prosesinə qanunsuz müdaxiləsini, onun göstərişi ilə Müsavat Partiyasının üzvü İmran İsmayılovun namizəd Cəmil Həsənlinin təşviqat materiallarını payladığına görə həbs etdirməsini, əvvəlcə Qəbələ Rayon Polis İdarəsinə, oradan isə məhkəməyə aparılaraq 7 gün müddətində inzibati həbs növündə tənbeh tədbirinin verildiyini bildirib Zülfüqar Cəfərovun seçkiyə qanunsuz müdaxiləsi və hüquq mühafizə orqanlarının qanunsuz qərarları ilə bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.